

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı


*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 43 (21.453)

*4 mart 2016-cı il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Rusiya Federasiyası Baş nazirinin müavini Dmitri Roqozinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı Rusiya Federasiyası Baş nazirinin müavini Dmitri Roqozinin Azərbaycana səfərinin ölkələrimiz arasında ikitərəfli münasibətlərin gündəliyi ilə bağlı məsələlərin bir daha nəzərdən keçirilməsi üçün yaxşı imkan yaratdığını bildirib. Prezident İlham Əliyev əlaqələrimizin möhkəmləndirilməsində Hökumətlərarası Birgə Komissiyanın fəaliyyətinin səmərəli olduğunu qeyd edərək ötən dövr ərzində komissiya tərəfindən bir sıra məsələlərin icra olunduğunu vurğulayıb. Dövlətimizin başçısı qeyd edib ki, bu gün hər iki ölkə ikitərəfli münasibətlərimizi strateji tərəfdaşlıq əlaqələri kimi xarakterizə edir. Prezident İlham Əliyev bunu əməkdaşlıq istiqamətində birgə əldə olunan nailiyyətlərə verilən yüksək qiymət kimi dəyərləndirib.

Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında ikitərəfli münasibətlərin hazırkı dövrdə ən yüksək səviyyədə olduğunu bildirən Dmitri Roqozin Hökumətlərarası Birgə Komissiya səviyyəsində əlaqələrin müxtəlif sahələrdə, o cümlədən iqtisadi, mədəni, təhsil və digər sahələrdə daha da genişləndirilməsi ilə bağlı məsələlərin müzakirə edildiyini vurğulayıb.



## Dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin əməkhaqlarının artırılması haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq, dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin sosial müdafiəsini gücləndirmək məqsədi ilə **qərara alıram:**

1. Dövlət büdcəsindən maliyyələşən aşağıda göstərilən təşkilatlarda çalışan rəhbər və digər işçilərin (Vahid Tarif Cədvəli əsasında əməkhaqqı alan işçilər istisna olmaqla) aylıq vəzifə maaşları 2016-cı il martın 1-dən orta hesabla 10 faiz artırılsın:

1.1. Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin "Naxçıvan Mətbəxi" Kulinariya Mərkəzi;

1.2. İcra hakimiyyəti orqanlarının nəzdində mərkəzləşdirilmiş mühasibatlıq;

1.3. Naxçıvan Muxtar Respublikasının Dövlət Arxivi, rayon (şəhər) dövlət arxivləri;

1.4. Naxçıvan Dövlət Film Fondu;

1.5. Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi.

2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti:

2.1. bu Sərəncamın 1-ci hissəsində göstərilən təşkilatlarda çalışan rəhbər və digər işçilərin vəzifə maaşlarının yeni məbləğlərini müəyyən etsin;

2.2. bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 3 mart 2016-cı il*

## Naxçıvan-Təbriz-Tehran-Məşhəd beynəlxalq sərnişin qatarının fəaliyyəti ilə bağlı texniki məsələlər müzakirə olunub



Martın 3-də Naxçıvan şəhərindəki "Duzdağ" otelində "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə İran Dəmir Yollarının İdarə Heyətinin üzvü Abbas Hajfathalihanın rəhbərliyindəki nümayəndə heyəti arasında Naxçıvan-Təbriz-Tehran-Məşhəd beynəlxalq sərnişin qatarının fəaliyyətə başlaması ilə bağlı texniki məsələlərlə əlaqədar müzakirələr aparılıb.

Görüşdə Cavid Qurbanov deyib ki, Naxçıvan Azərbaycan tarixinə, Azərbaycan dövlətinə çox böyük şəxsiyyətlər bəxş etmiş qədim diyarımızdır. Ermənistanın apardığı təcavüzkar siyasət nəticəsində muxtar respublika 24 ildir, blokada şəraitində yaşayır.

Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında qarşılıqlı əlaqələrin daim genişləndiyini, bu il fevralın 23-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin İran İslam Respublikasına rəsmi səfər etdiyini bildirən Cavid Qurbanov deyib ki, həmin səfər zamanı hər iki ölkə üçün mühüm əhəmiyyət kəsb edən müqavilələr imzalanıb. Həmin sənədlərdən "Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında Azərbaycan və İran dəmir yollarının əlaqələndirilməsi haqqında Çərçivə Sazişi", "Azərbaycan Dəmir Yolları" QSC ilə İran İslam Respublikasının Dəmir Yolları arasında Azərbaycan-İran dövlət sərhədində Astara çayı üzərində dəmir yolu körpüsünün tikintisi haqqında Müqavilə" "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin reallaşması baxımından böyük önəm daşıyır. Şimal-Cənub beynəlxalq dəmir yolu xətti ilə sərnişindaşımaları da həyata keçiriləcəkdir. Bu baxımdan Naxçıvan ilə İran arasında beynəlxalq sərnişin qatarının fəaliyyətə başlaması önəmlidir.

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri fəaliyyətə başlayacaq dəmir yolu xətti ilə yükdaşımaların da həyata keçiriləcəyini qeyd edərək deyib ki, bu həm iqtisadi, həm ekoloji, həm də təhlükəsizlik baxımından sərfəlidir.

Sürətlə inkişaf edən Naxçıvan Muxtar Respublikasında olmaqdan məmnunluğunu ifadə edən İran Dəmir Yolları İdarə Heyətinin üzvü Abbas Hajfathaliha İran ilə Azərbaycan arasındakı münasibətlərin gündən-günə inkişaf etdiyini vurğulayıb. O, qeyd edib ki, Naxçıvan-Təbriz-Tehran-Məşhəd beynəlxalq sərnişin qatarının fəaliyyətə başlaması ilə bağlı müzakirələr aparılıb və müvafiq razılaşma əldə olunub.

Sonra Naxçıvan-Təbriz-Tehran-Məşhəd beynəlxalq sərnişin qatarının fəaliyyətə başlaması məqsədilə təşkilati işlərin həlli, İran dəmir yolları tərəfindən Azərbaycan dəmir yollarına məxsus yük vaqonlarının birgə istifadəsi, Rəşt-Astara dəmir yolu bağlantısının tikilməsi üçün maliyyə mənbələrinin araşdırılması məsələləri müzakirə olunub, iclasın protokolu imzalanıb.

Azərbaycan və İran dəmir yolları mütəxəssislərinin mart ayı ərzində təkərdəyişmə məntəqəsinin yerləşdiyi Culfa stansiyasında birgə araşdırmalar aparması, Azərbaycan və İran dəmir yollarının sərnişin bilet satışı sistemlərinin uyğunlaşdırılması imkanlarının araşdırılaraq müzakirəyə çıxarılması və növbəti görüşün aprel ayında keçirilməsi qərara alınıb.

✍ **Rauf ƏLİYEV**

## Ulu öndər Heydər Əliyev və Azərbaycan Ordusu

***Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində Heydər Əliyev adına Hərbi Liseyin kursantları üçün "Ulu öndər Heydər Əliyev və Azərbaycan Ordusu" mövzusunda açıq dərs keçilib.***

Muzeyin direktoru Ramil Orucəliyev bildirib ki, 1991-ci ildə öz müstəqilliyini yenidən bərpa edən Azərbaycan elə müstəqilliyinin ilk günlərindən mürəkkəb sosial-iqtisadi, ictimai-siyasi vəziyyətlə üzləşib. Bu, ordu quruculuğu sahəsində də özünü göstərib. Səriştəsiz rəhbərlərin bacarıqsızlığı ucbatından silahlı birləşmələr daxili siyasi mübarizəyə cəlb olunub, ayrı-ayrı şəxslərə və siyasi qruplara xidmət edən silahlı dəstələrə çevrilib. 1993-cü ildə ümummilli lider Heydər Əliyevin xalqın tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdışından sonra qısa müddətdə vahid komandanlığa tabe olan nizami ordu formalaşdırılıb.

Qeyd olunub ki, ulu öndər ordu quruculuğuna hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində çalışarkən başlayıb. Belə ki, dahi şəxsiyyətin Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi dövrdə ordu quruculuğu istiqamətində mühüm qərarlar qəbul edilib, Naxçıvanda Dövlət Müdafiə Komitəsi yaradılıb. 1992-ci il sentyabrın 15-də Naxçıvan Muxtar Respublikası ərazisində ilk milli ordu qurumlarından biri olan 705 saylı əlahiddə gücləndirilmiş motoatıcı briqada təşkil edilib. 1992-ci il sentyabrın 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasının müdafiəsinin və sərhədlərinin qorunmasının təşkili haqqında" Qərar qəbul olunub.

Ordu quruculuğu prosesinin ümummilli liderimizin Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra daha geniş miqyasda davam etdirildiyini qeyd edən Ramil Orucəliyev bildirib ki, ulu öndərimiz 1993-cü ildə hakimiyyətə gəldiyi ilk gündən ordu quruculuğu prosesini diqqət mərkəzində saxlayıb. 1994-cü il mayın 12-də cəbhədə atəşkəsin elan edilməsi ordu quruculuğunda mühüm irəliləyişlərin əldə edilməsinə şərait yaradıb. Dövlətçiliyə sədaqətli, mənəvi-psixoloji hazırlığa malik peşəkar hərbçi kadrların Silahlı Qüvvələrin formalaşmasında iştirakı təmin olunub, döyüş ruhunun yüksəldilməsi və hərbi-vətənpərvərlik hisslərinin aşılanması işi gücləndirilib, maddi-texniki təminat xeyli yaxşılaşdırılıb. Hərbi təhsil sahəsində mühüm islahatlar aparılaraq ümummilli liderin adını daşıyan indiki Azərbaycan Ali Hərbi Məktəbi yaradılıb və bu məktəb hazırda ordumuzun hərbçi kadrlara olan tələbatını ödəyir.



Qeyd olunub ki, ölkəmizdə ordu quruculuğu istiqamətində görülən işlər Naxçıvan Muxtar Respublikasında da uğurla davam etdirilir. Silahlı Qüvvələrimizin Ali Baş Komandanı cənab İlham Əliyev Naxçıvanın müdafiə qabiliyyətinin möhkəmləndirilməsini daim diqqət mərkəzində saxlayır. Dövlət başçısının "Azərbaycan Respublikası Müdafiə Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2013-cü il 18 dekabr tarixli Fərmanına əsasən, 5-ci Ordu Korpusunun əsasında Əlahiddə Ümumqoşun Ordusunun yaradılması bir mərkəzdən idarəetmənin təkmilləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Bununla da, Naxçıvanın müdafiə potensialının, hərbi hissələrin döyüş hazırlığının daha da yüksəldilməsinə əsaslı zəmin yaradılıb. Blokada vəziyyətində olan Naxçıvan Muxtar Respublikasında hərbi təyinatlı tikinti-quruculuq işlərinin geniş vüsət alması, maddi-texniki bazanın gücləndirilməsi, şəxsi heyətin döyüş ruhunun artırılması bu yöndə atılan addımların mühüm tərkib hissəsidir. Motoatıcı briqadadan Əlahiddə Ümumqoşun Ordusu səviyyəsinədək böyük inkişaf yolu keçmiş Naxçıvan ordusu Azərbaycan Ordusunun muxtar respublikada gücünü bir daha ortaya qoyur.

Sonra liseyin kursantları Heydər Əliyev Muzeyindəki eksponatlarla tanış olublar, "Heydər Əliyev və Azərbaycan Ordusu" filminə baxıblar.

✍ **Səbuhi HƏSƏNOV**



# İqtisadiyyat

***İqtisadi inkişafın mühüm göstəricilərindən biri xarici ticarətin həcmidir. Məhz aktiv xarici ticarət hesabına əldə olunan müsbət saldo ölkənin valyuta ehtiyatlarının artmasına və iqtisadi təhlükəsizliyin təmin olunmasına imkan yaradır. Muxtar respublikamızda daxili imkanlar hesabına iqtisadiyyatın şaxələndirilməsi regionun ixrac imkanlarını artırıb. Nəticədə, dünya bazarına çıxa bilən naxçıvanlı sahibkarlar qarşısında yaxşı fürsətlər yaranıb.***

## Muxtar respublikanın xarici ticarət əlaqələri genişlənir



2015-ci ildə muxtar respublikamızın 56 xarici ölkə ilə ticarət əlaqələri olub. Ötən il ərzində xarici dövlətlərlə 512 milyon 354,5 min ABŞ dolları dəyərində ticarət əməliyyatları aparılıb. Bu qədər həcmdə xarici ticarət əməliyyatlarında idxal və ixracın payına və strukturuna gəldikdə, görürük ki, bu müddət ərzində 414 milyon 420,6 min ABŞ dolları dəyərində mal ixraca göndərilib, 97 milyon 933,9 min ABŞ dolları dəyərində mal idxal olunub. İdxal-ixrac əməliyyatları üzrə müsbət saldo 316 milyon 486,7 min ABŞ dolları təşkil edib. İdxal-ixrac əməliyyatlarının həcmini 2014-cü illə müqayisə etdikdə isə 2015-ci ildə ixrac əməliyyatlarının həcminin 1,4 faiz artdığını, idxal əməliyyatlarının həcminin isə 10 faiz azaldığını görürük.

Naxçıvan Muxtar Respublikasından ixrac edilən malların alıcıları olan dövlətlərdən Türkiyə Respublikası, Türkmənistan Respublikası, İran İslam Respublikası, İsrail Dövləti, Rusiya Federasiyası, Gürcüstan Respublikası və digərlərinin adlarını çəkmək olar. Ötənilki ixracın 316 milyon 797,3 min ABŞ dollarını, yəni ümumi ixracın 76,4 faizini sənaye məhsulları, 97 milyon 623,3 min ABŞ dollarını, yəni ümumi ixracın 23,6 faizini isə kənd təsərrüfatı məhsulları təşkil edib. Qeyd edək ki, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə sənaye məhsullarının ixracı 1,1 faiz, kənd təsərrüfatı məhsullarının ixracı isə 2,6 faiz artıb. İl ərzində ixracın dinamikasına nəzər saldıqda iyun və avqust ayları ərzində onun həcminin ən yüksək səviyyədə olduğunu görməkdəyik. Naxçıvanın əsas ixrac məhsullarından məşhur mineral sularımızı, təbii duzu, vafli məmulatlarını, çay, emal olunmuş ət və meyvə məhsullarını, qazlı aromatlaşdırılmış içkiləri, spirtli içkiləri, meyvə şirələrini, yüksəkkeyfiyyətli tikinti materiallarını, o cümlədən Naxçıvan sementini, gips və daş məmulatlarını, xam dəri, plastik və metal məmulatlarını, mebel, metal örtüklər, panel radiatorlar, karbon qazı və digər çox sayda məhsulları misal göstərmək olar.

2015-ci ildə muxtar respublikada istehsal olunan sement, travertin daş məmulatları, meyvə şirələri, vafli məmulatları Gürcüstana, yarımfabrikat dəri, mineral sular Türkiyə, İran və MDB ölkələrinə, NAZ-Lifan avtomobilləri Belarusa ixrac olunub.

Muxtar respublikanın xarici ticarət əlaqələrinin artması ixrac olunan əmtəələrin bazar payının genişlənməsi ilə paralel olaraq idxalın coğrafiyasının da genişlənməsinə səbəb olub. Belə ki, idxal olunan əmtəələrin 50 faizi Avropa Birliyinin üzvü olan ölkələrdən, 31 faizi Türkiyə Respublikasından, 9 faizi MDB ölkələrindən, 3 faizi İran İslam Respublikasından, qalan 7 faizi isə dünyanın digər ölkələrindən alınıb. İdxalın strukturuna gəldikdə isə burada, təqribən, 63 milyon ABŞ dolları həcmində olan sənaye malları üstünlük təşkil edir. Bundan sonra əsas idxal olunan mallar arasında, təqribən, 14 milyon ABŞ dollarlıq nəqliyyat vasitələrini, onların ehtiyat hissələrini, daha sonra ərzaq məhsullarını, tikinti materiallarını və digər məhsulları görməkdəyik.

Ötən il ərzində idxal əməliyyatlarında dövlət sektorunun payı 51 milyon 540,62 min ABŞ dolları, yəni ümumi idxalın 52,6 faizini, fiziki şəxslər isə 44 milyon 713,51 min ABŞ dolları, yəni ümumi idxalın 45,7 faizini, özəl sektorun payı isə 1 milyon 679,77 min ABŞ dolları, yəni ümumi idxalın 1,7 faizini təşkil edib.

İxracyönümlü məhsul istehsalı iqtisadiyyatın prioritet məsələlərindən biridir. Bu, muxtar respublikamızda da belədir. Naxçıvan Muxtar Respublikasında iqtisadi inkişaf sürətləndikcə xarici ticarət əməliyyatlarında da ixrac meyilləri artmaqdadır. Xarici bazarlara çıxışın təmin edilməsində muxtar respublikada fəaliyyət göstərən şirkətlərə ixrac təşviqlərinin verilməsi, onlara xarici bazarlara çıxış üçün müxtəlif dəstək mexanizmlərinin tətbiqi dairəsi genişlənir. Bundan əlavə, muxtar respublikada ixracyönümlü hazır məhsul istehsalının artması, yükdaşımalarının artmasına imkan verəcək yeni nəqliyyat imkanlarının yaranması və digər müasir infrastruktur şəraitinin yaradılması gələcəkdə ixracatın səviyyəsini daha da yüksəldəcəkdir.

## Babək rayonunda emal sənayesi üzrə geniş imkanlar vardır

***İqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsində istehlak üçün hazır məhsul istehsalı üzrə ixtisaslaşmış müəssisələrin mühüm əhəmiyyəti vardır. Yerli xammalın emal olunaraq müxtəlif tələbatların ödənilməsi həm iqtisadiyyatın şaxələndirilməsi, həm də daxili tələbatın təmin olunması prinsipləri baxımından ən sərfəli iqtisadi qərarlardan sayılır. Buna görə də muxtar respublikamızda həyata keçirilən iqtisadi siyasət tədbirləri arasında xüsusən bölgələrdə emal yönümlü istehsal müəssisələrinin yaradılması dövlətin əsas prioritetlərindən biridir.***








Naxçıvan Muxtar Respublikasının ən böyük rayonlarından biri olan Babəkdə fəaliyyət göstərən istehsal müəssisələrinə nəzər saldıqda burada onların həm çoxprofilli, həm də rayonun, demək olar ki, əksər yaşayış məntəqələrində olduğunu görməkdəyik. Bu, bir tərəfdən yerli işçi qüvvəsinin imkanlarından səmərəli istifadə olunmasına, digər tərəfdən də mövcud xammal və enerji potensialından maksimum istifadəyə imkan yaradır. Ümumiyyətlə, Naxçıvan Muxtar Respublikasının əksər bölgələrində də müşahidə olunan bu tendensiyanın Babək rayonunda əhəmiyyəti ona görə böyükdür ki, bu rayon həm muxtar respublikanın paytaxtına yaxın ərazidə yerləşir, həm də əhali və torpaq-su ehtiyatları baxımından çox geniş potensiala malikdir.

Muxtar respublikamızın müasir inkişaf mənzərəsində Babək rayonunun öz yeri vardır. Bu gün Babəkdə 80-ə yaxını istehsal təyinatlı olmaqla, 520-dən çox sahibkarlıq subyekti fəaliyyət göstərir. Şübhəsiz, bu qədər sahibkarın fəaliyyəti rayon iqtisadiyyatının inkişafına, əhalinin, əsasən, yerli mallara olan tələbatlarının ödənilməsinə şərait yaradır. Bundan başqa, yeni iş yerlərinin yaradılması baxımından istehsal müəssisələrinin əhəmiyyəti çox böyükdür. Belə ki, rayondakı istehsal müəssisələrində yüzlərlə yeni iş yeri yaradılıb. Bu baxımdan iqtisadiyyatın belə sahələrinin hərəkətə gətirilib inkişaf etdirilməsində özəl sektor, xüsusilə kiçik sahibkarlıq subyektlərinin fəaliyyəti vacibdir.

Babək rayonunun iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edir. Bununla yanaşı, rayonda tikinti materiallarının istehsalı və emalı, mineral sular istehsalı da vardır. Muxtar respublikamızda aparılan tikinti-quruculuq işlərində mühüm əhəmiyyətli “Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi” Məhdud Məsuliyyətli Cəmiyyətinin Babək rayonunun Araz kəndi yaxınlığında yerləşən istehsal müəssisəsi 2005-ci ildən fəaliyyət göstərir. Gündəlik istehsal gücü 1000 kvadratmetr olan müəssisədə yüksəkkeyfiyyətli travertin istehsalı üçün hər cür şərait yaradılıb.

“Bərəkət Ət Məhsulları Kompleksi” Məhdud Məsuliyyətli Cəmiyyəti muxtar respublikada bu sahə üzrə ixtisaslaşmış ən iri müəssisədir. Burada gün ərzində 100 baş iribuynuzlu, 250 baş xırdabuynuzlu heyvanların kəsimini həyata keçirən avadanlıq quraşdırılıb, kolbasa istehsalı sahəsinin gündəlik istehsal gücü 2 tona çatdırılıb. Otuz nəfərin daimi işlə təmin olunduğu müəssisədə müxtəlif çeşidlərdə ət və ət məhsulları istehsal olunur.

Müasir texnoloji avadanlıqlarla təmin olunmuş Babək “Sirab” Açıq Səhmdar Cəmiyyətində keyfiyyətli məhsul istehsalı üçün əlverişli şərait yaradılıb. Əldə etdiyimiz son məlumata görə, 180 nəfərin işlə təmin olunduğu bu müəssisədə ötən il müxtəlif həcmdə 5 milyon 300 min litrdən artıq su qablaşdırılıb, ümumi məhsulun, təqribən, 11 faizi xarici ölkələrə ixrac olunub. Naxçıvanın brend məhsullarından biri olan “Sirab” suyu Türkiyə, Ukrayna, Qazaxıstan, Belarus, Türkmənistan, Litva respublikalarına və Rusiya Federasiyasına göndərilir.

Muxtar respublikamızda özəl sektora göstərilən dövlət dəstəyinin artması ilə Babək rayonunda da müxtəlif məhsul istehsalı ilə məşğul olan çox sayda sahibkar təbəqəsi formalaşıb. Nəticədə, rayondakı xammal ehtiyatlarından istifadə etməklə tikinti materialları, ət və süd məhsulları, mineral su və limonad, lavaş, şirniyyat istehsalı, habelə mebel və plastik qapı-pəncərə istehsalı sahələri yaradılıb, bir neçə dəyirman işə salınıb. Əlbəttə, müasir dövrdə yaradılmış iqtisadi imkanlarla müqayisədə bu, son hədd deyildir. Belə ki, Babək rayonunda mövcud olan potensial daha çox istehsal və emal müəssisələri yaratmağa imkan verir. Aqrar kompleksdə heyvandarlıq məhsullarının emalı üzrə istehsal müəssisələri əksəriyyət təşkil edir. Ancaq yaxın keçmişdə bu rayonda üzüm və meyvənin emalı üzrə istehsal müəssisələri fəaliyyət göstərib, bu sahədə güclü potensial əldə olunub. Odur ki, Babəkdə mövcud olan bütün xammal və istehsal potensialının hərəkətə gətirilərək onlardan tam istifadə olunması günün aktual məsələlərindəndir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 8 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı”nın icrası zamanı müxtəlif meyvə-tərəvəz məhsullarının istehsalı və onların emalı üzrə istehsal müəssisələrinin yaradılması bütün muxtar respublikamızda olduğu kimi, Babək rayonunda da öz həllini tapacaqdır.

Babək rayonunda fəaliyyət göstərən istehsal müəssisələri arasında bir çoxları həm işçi sayına, həm də mal dövriyyəsi həcminə görə seçilir. Belə ki, bunlardan bəziləri, məsələn, gəc sexləri mövsümi fəaliyyət göstərsələr də, əksəriyyəti ilboyu işləyərək bazara yerli məhsullar çıxarır. Naxçıvanda özünəməxsus şəkildə hazırlanan, yüksək keyfiyyəti ilə seçilən lavaşbişirmə ənənəsi olub. Bu iş indi müasir texnologiya ilə davam etdirilir. Naxçıvan lavaşına böyük tələbat olub, hətta ölkəmizin digər yerlərində və paytaxt Bakıda bu məhsul brend kimi tanınmaqdadır. Bu baxımdan Babək kimi böyük bir rayonda 40-a yaxın lavaş sexinin fəaliyyət göstərməsi təsadüfi deyildir. Bundan əlavə, rayonda 4 un dəyirmanı və 4 şirniyyat məhsulları istehsal edən müəssisələr, 6 istixana, 3 quşçuluq təsərrüfatı vardır. Digər bir mühüm məqam da ondan ibarətdir k, təkcə rayon mərkəzində, Nehrəm və Cəhri kimi iri kəndlərdə deyil, rayonun digər kəndlərində də istehsal müəssisələri fəaliyyət göstərir. Vayxır, Nəzərabad, Naxışnərgiz, Kültəpə və digər yaşayış məntəqələrində fəaliyyət göstərən çörək, süd məhsulları, unlu məmulatlar istehsal edən müəssisələr buna misaldır.

Babəkdə öz uğurlu işi ilə tanınan sahibkarlar çoxdur. Qeyd edək ki, onlardan süd məhsulları emalı ilə məşğul olan Rafiq Əliyev ötən ilin yekunlarına görə ilin ən yaxşı işəgötürəni nominasiyasının mükafatçısı olub.

Didivarlı sahibkar Səxavət Rzayev 10 ilə yaxındır ki, fəaliyyət göstərir. Bu müddət biznesin davam etdirilməsi baxımından bir sahibkar üçün uğur sayıla bilər. Bizimlə söhbətində bildirdi ki, çörəkbişirmə ilə yanaşı, bağçılıqla da məşğuldur. İki hektar ərazidə salınmış ərik, şaftalı, gavalı ağaclarından artıq neçə ildir ki, məhsul götürür. İşlə təmin etdiyi 8 nəfər kəndlisi kimi o da işindən razıdır.

Zeynəddində gülçülüklə məşğul olan Əbdüləli Abbasov sahibkarlığa ötən ildən başlayıb. Öz sərmayəsi ilə işə başlayan sahibkar bazarda gülçülükdə idxalın payı yüksək olduğundan bu sahədə yaxşı satış imkanlarının olduğunu bildirdi. Yetişdirdiyi təzə çiçəklərə Naxçıvan şəhərinin mərkəzindəki gül mağazasında həmişə tələbat vardır. Söhbətində, hələlik, 2 nəfərin işlədiyi təsərrüfatını gələcəkdə genişləndirmək istədiyini qeyd etdi.

Babəkli sahibkarlar gələcəyə nikbin baxırlar. Muxtar respublikamızda biznes üçün yaradılmış münbit şərait iqtisadi imkanlardan istifadə edə bilən hər bir iş adamı üçün yeni fürsətlər açır. Real sektora öz töhfəsini verən belə sahibkarların sayı artdıqca gələcəkdə uğurlu layihələrin də sayı artacaqdır.

*Səhifəni hazırladı:* ✍ Əli CABBAROV

## Hüseyn xan Naxçıvanski haqqında tammetrajlı sənədli filmin təqdimat mərasimi keçirilmişdir

***Naxçıvan şəhərindəki “Gənclik” Mərkəzində “Salnamə” Sənədli Filmlər Studiyası və Sankt-Peterburqun “Lennauçfilm” kinostudiyası tərəfindən çəkilən, Rusiya imperiyasında böyük nüfuz sahibi olmuş görkəmli azərbaycanlı sərkərdə, tam süvari qoşunları generalı, II Nikolayın general-adyutantı olmuş Hüseyn xan Naxçıvanski haqqında tammetrajlı sənədli filmin təqdimatı olmuşdur.***



Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov çıxış edərək demişdir ki, Azərbaycanın qədim Naxçıvan torpağı görkəmli şəxsiyyətlər, sərkərdələr yetirib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində bu şəxsiyyətlərin yubileyləri qeyd olunur, həyat və fəaliyyətləri öyrənilir və təbliğ edilir, onlar haqqında sənədli filmlər hazırlanır, kitablar nəşr olunur. Belə şəxsiyyətlərdən biri də Hüseyn xan Naxçıvanskidir. Ötən müddət ərzində görkəmli sərkərdənin həyat və fəaliyyətinə həsr olunmuş bir sıra tədbirlər keçirilmiş, Rudolf İvanovun “Əlahəzrətin general-adyutantı” kitabı Azərbaycan dilinə tərcümə olunmuş, 2000 nüsxə ilə nəşr olunaraq geniş oxucu kütləsinə çatdırılmışdır. Təqdimatına toplaşdığımız film də bu istiqamətdə görülən işlərin davamıdır. Azərbaycanda məşhur hərbi xadimlər ailəsi kimi tanınmış Naxçıvanskilər nəslinin yetirməsi olan Hüseyn xan Naxçıvanski şərəfli döyüş yolu keçmiş, gənc nəsil üçün vətənpərvərlik nümunəsi yaratmışdır. O, süvari alayındakı 20 illik xidməti zamanı kornetdən polkovnikə qədər yol keçmiş, Rus-yapon müharibəsində 2-ci Dağıstan Süvari Alayına komandanlıq etmişdir. Müharibədən sonra rus ordusunun şöhrətli alaylarına, Nijeqorodsk draqun və leyb-qvardiya süvari alaylarına rəhbərlik etmişdir. Birinci Dünya müharibəsinin ilk günlərindən Hüseyn xan Naxçıvanski diviziya və süvari korpusların komandiri kimi ön cəbhədə olmuş, döyüş tapşırıqlarını şərəflə yerinə yetirmiş, əlahəzrətin general-adyutantı rütbəsinə qədər yüksəlmişdir. Ömrünü Rusiyanın hərbi qüdrətinin artırılması naminə mübarizəyə sərf edən Hüseyn xan Naxçıvanski öz igidliyi, hünər və rəşadəti ilə şanlı səhifələr yazmışdır. O həm də rus xalqına və onun hökmdarı II Nikolaya bütün varlığı ilə bağlı olan bir şəxsiyyət kimi imperiya hakimiyyəti dağıldıqdan sonra belə, müvəqqəti hökumətə tabe olmaqdan qətiyyətlə imtina etmişdi. Hətta II Nikolay özü Hüseyn xan Naxçıvanskiyə müvəqqəti hökumətə tabe olmağı məsləhət görsə də, o, öz əqidəsindən dönməmişdir.

Qeyd olunmuşdur ki, ömrünün sonunadək hərbi andına sadiq qalan Hüseyn xan Naxçıvanski 2-ci dərəcəli “Müqəddəs Aleksandr”, “Müqəddəs Georgi” ordeninin 3-cü və 4-cü dərəcələri, “Müqəddəs Vladimir”, “Müqəddəs Stanislav” ordenlərinin bütün dərəcələri, “Müqəddəs Anna” kimi ən yüksək orden və medallar ilə təltif edilmişdir. Hüseyn xan Naxçıvanskinin şərəfli adı rus və Azərbaycan xalqlarının yaddaşında bu günədək əsl qeyrət, hünər və sədaqət rəmzi kimi yaşayır. Hüseyn xan Naxçıvanski kimi görkəmli şəxsiyyətlərin həyat və fəaliyyəti gənclər üçün bir nümunədir. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin sifarişi ilə “Salnamə” Sənədli Filmlər Studiyası və “Lennauçfilm” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən hazırlanan “Hüseyn xan Naxçıvanski. Qayıdış” filmi bu baxımdan öz əhəmiyyətini və dəyərini artırır. Çəkilişləri Naxçıvan, Bakı və Sankt-Peterburqda aparılan filmdə tarixi faktlardan, xüsusilə də arxiv materiallarından geniş istifadə olunmuşdur. Bu film görkəmli sərkərdənin həyat və fəaliyyətini yaşatmaqla bərabər, gənc nəslin hərbi-vətənpərvərlik ruhunda tərbiyə olunmasında əvəzsiz rol oynayacaqdır.

Rəhman Məmmədov xatirəsi bu gün də Rusiyada və Azərbaycanda əziz tutulan görkəmli sərkərdənin zəngin və keşməkeşli həyat yolunu əks etdirən ekran əsərinin hazırlanmasında əməyi olanlara minnətdarlığını bildirmişdir.

Sonra “Lennauçfilm” Məhdud Məsuliyyətli Cəmiyyətinin baş direktoru Anton Smirnovun, “Salnamə” Sənədli Filmlər Studiyasının direktoru Nazim Hüseynovun çıxışları olmuşdur. Çıxışlarda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə və sənədli filmin ərsəyə gəlməsində yaxından köməklik göstərən qurumlara minnətdarlıq ifadə edilmişdir.

Sonra “Hüseyn xan Naxçıvanski. Qayıdış” filmi nümayiş etdirilmişdir. Film tamaşaçılar tərəfindən böyük maraqla izlənilmişdir.

Məlumat üçün bildirək ki, filmin çəkilişlərinə 2012- ci ildə başlanılmış, çəkilişlər iki il ərzində aparılmışdır. Çəkilişləri Naxçıvanda, Bakıda və Sankt-Peterburqda aparılan filmdə arxiv materiallarından geniş istifadə olunmuşdur. Filmin ideya müəllifi rejissor Tahir Əliyev, ssenari müəllifi və rejissoru Valentina Qurkalenkodur.

**Səbuhi HÜSEYNOV**

## Tarixi və mədəniyyət abidələrimizin bərpası diqqət mərkəzində saxlanılır

### *Əlincəqalanın və Gülüstan türbəsinin bərpası uğurla aparılır*

***Qədim mədəniyyət mərkəzlərindən biri olan Naxçıvan Muxtar Respublikasının ərazisi min illərin tarixini yaşadan qədim yaşayış yerləri, tarixi abidələrlə zəngindir. Buradakı mağaralar, qədim yaşayış yerləri, möhtəşəm qalalar, qayaüstü rəsmlər, daş qoç heykəlləri və türbələr tarixin dərin qatlarından xəbər verir.***

Muxtar respublika ərazisində yerləşən tarix və mədəniyyət abidələri tariximizin daş yaddaşı kimi qorunur, onların bərpası diqqət mərkəzində saxlanılır. Son illər Möminə xatın türbəsi, Qarabağlar Memarlıq Kompleksi konservasiya edilib, “Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksində yenidənqurma işləri aparılıb, Yusif Küseyiroğlu və Nuh türbələri, “İmamzadə”, muxtar respublika ərazisindəki Buzxana abidələri, “Came” məscidi, Zaviyə mədrəsəsi, İsmayılxan hamamı, Xan sarayı, Culfa rayonundakı Xanəgah Abidə Kompleksi, Ordubad rayonundakı Aza körpüsü, Qeysəriyyə, Naxçıvanqala və digər tarixi abidələr əsaslı şəkildə bərpa olunub. Ümumiyyətlə, son 21 ildə muxtar respublikada 70-ə yaxın tarix və mədəniyyət abidəsi əsaslı təmir və bərpa edilib. Hazırda Əlincə qalasında və Gülüstan türbəsində bərpa işləri aparılır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı ildə “Nuh Peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü abidəsinin bərpa edilməsi haqqında”, 2010-cu ildə “Xan Sarayı” Dövlət Tarix-Memarlıq Muzeyinin yaradılması haqqında”, 2011-ci ildə “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin yaradılması haqqında”, 2013-cü ildə “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksinin yaradılması haqqında”, 2014-cü ildə “Culfa rayonundakı “Əlincəqala” tarixi abidəsinin bərpa edilməsi haqqında” imzaladığı sərəncamlar tarixi-mədəni irsimizin öyrənilməsi və təbliği baxımından mühüm əhəmiyyətə malik olan sənədlərdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında” 2005-ci il dekabrın 6-da imzaladığı Sərəncamın icrası ilə əlaqədar muxtar respublika ərazisindəki tarix və mədəniyyət abidələri qeydə alınıb pasportlaşdırılıb. Bu gün bərpa olunan Əlincəqala haqqında da ətraflı məlumat toplanılıb, lazımi tədqiqat işləri aparılıb. Bu abidə 2007-ci ildə dünya əhəmiyyətli abidələrin siyahısına daxil olunub. 2014-cü il fevralın 11-də isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri “Culfa rayonundakı “Əlincəqala” tarixi abidəsinin bərpa edilməsi haqqında” Sərəncam imzalayıb. Bu gün Əlincəqalada genişmiqyaslı bərpa işləri həmin sərəncama uyğun aparılır.



“Əlincəqala” tədqiqat qrupunun rəhbəri, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev bu tarixi abidə barədə danışarkən dedi ki, qalanın iki əsas girişi olub. Girişlərdən biri Culfa-Qazançı yolunun sağ tərəfindədir. Bərpa işlərinə bu hissədən başlanması məqsədəuyğun hesab edilib və Əlincə dağının müəyyən hissəsinə qədər, daha doğrusu, qala istehkamlarınadək yol çəkilib. Buna baxmayaraq, bərpa üçün zəruri olan tikinti materialları qalaya əllə və digər yardımçı vasitələrlə qaldırılıb. Qısa zamanda qalanın şərq və qərb darvazaları bərpa edilərək əvvəlki vəziyyətinə qaytarılıb. İri qaya parçalarından inşa edilən qala divarlarının bərkidilməsi üçün, əsasən, əhəng məhlulundan istifadə edilib. Təmir və bərpa işlərinə rəhbərlik edənlər nəinki divarların əslinə uyğun şəkildə bərpasına səy göstərib, həmçinin bu əvəzedilməz abidənin neçə min il bundan əvvəlki əzəmətli görkəmini də göstərməyə nail olublar.

Vəli Baxşəliyev bildirdi ki, qalanın yuxarı səki hissəsindəki binaların bir qismi vaxtilə yaşayış sahəsi, bir qismi isə ictimai bina kimi istifadə olunub. Burada süvarilərin atlarını saxladığı tövlələr, ərzaq anbarları və çörək bişirmək üçün təndirlər aşkar edilib. Evlərin qızdırılmasında kiçik təndirlərdən və buxarılardan istifadə olunub. Bir-birinin yaxınlığında yerləşən evlər, əsasən, birotaqlıdır. Bəzi otaqların arxa divarlarında dördkünc formalı taxçalar, evlərin içərisində isə kiçik təndirlər, həvənglər, əl dəyirmanları aşkarlanıb. Bir sözlə, təmir-bərpa işləri zamanı qalada yaşayan insanların həyat tərzini özündə əks etdirən xeyli faktlar üzə çıxarılıb.

Bərpa işləri zamanı torpaq altında qalan çoxlu sayda binanın aşkarlanaraq təmizləndiyini deyən “Əlincəqala” tədqiqat qrupunun rəhbəri bildirib ki, qalada suya olan tələbatı ödəmək üçün su hovuzlarından və kəhrizlərdən istifadə olunub. Hovuzlarda suyu toplamaq məqsədilə sərt qayaların üzəri ilə kiçik kanallar açılıb. Onlardan bəzisinin uzunluğu 20 metr, eni 5 metrə yaxındır. Bəzilərinin dərinliyi isə 3 metrdir. Yaz aylarında yağış çox yağanda bəzən suyun hamısını hovuzlarda toplamaq olmurdu. Buna görə qala sakinləri yeraltı suları idarə etmək üçün səy göstərib, qalanın bəzi hissələrində yeraltı suları üzə çıxarmağa nail olublar. Son illər aparılan araşdırmalar zamanı Əlincəqalanın şərq tərəfində aşkar olunan kəhrizlər də suya olan tələbatın ödənilməsi üçün mühüm rol oynayıb.

Gülüstan türbəsində aparılan bərpa işləri isə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il oktyabrın 7-də imzaladığı “Gülüstan türbəsinin bərpası və tədqiq olunması haqqında” Sərəncama uyğun həyata keçirilir.

Orta əsr Azərbaycan mədəniyyətini müasir dövrümüzədək yaşadan Gülüstan türbəsi xatirə memarlığının ən dəyərli nümunələrindən biri, Əcəmi Naxçıvani memarlıq məktəbinin yadigarı kimi böyük əhəmiyyətə malikdir. Buna görə də AMEA Naxçıvan Bölməsinə Naxçıvan Muxtar Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə birlikdə bərpa işlərinin elmi əsaslarla aparılmasının təmin olunması tapşırılıb. Həmçinin sərəncamla AMEA Naxçıvan Bölməsinə “Gülüstan türbəsi” tədqiqat qrupunun yaradılması, Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinə və “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasına bərpadan sonra Gülüstan türbəsinin ziyarətçilərə açıq olması üçün zəruri tədbirlər görülməsi barədə tapşırıqlar verilib.

“Gülüstan türbəsi” tədqiqat qrupunun rəhbəri, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli bizimlə söhbətdə bildirdi ki, “Gülüstan türbəsinin bərpası və tədqiq olunması haqqında” Sərəncamın imzalanmasından bir gün sonra, yəni 2015-ci il oktyabrın 8-də AMEA Naxçıvan Bölməsində tədqiqatçıları özündə birləşdirən “Gülüstan türbəsi” tədqiqat qrupu yaradılıb. Həmin il oktyabrın 12-də tədqiqat qrupunun ilk yığıncağı keçirilib və qarşıda duran vəzifələr müəyyənləşdirilib.

Fəxrəddin Səfərli dedi ki, Naxçıvan memarlıq məktəbinin ən gözəl nümunələrindən sayılan, Azərbaycanın qülləvarı türbələri sırasına daxil olan abidə iki hissədən – sərdabə və türbədən ibarətdir. Digər türbələrdə sərdabə hissəsi yerin altında yerləşdirildiyi halda, burada yerin səthindən yuxarıda inşa olunub. Türbənin aşağı hissəsini təşkil edən yonulmuş daşdan tikilmiş kürsülük xaricdən kəsik piramida şəklindədir, daxildən silindrik quruluşa malikdir. Yuxarı hissə isə 12 üzlü qüllədən ibarətdir.

Qüllənin bütün üzlərində yaradılan taxçaların içərisinin çox incə şəkildə işlənmiş naxışlarla və ornamentlərlə doldurulduğunu deyən tədqiqat qrupunun rəhbəri qeyd etdi ki, türbənin daş üzərində oyulmuş ornamentləri zənginliyi, incəliyi, zərifliyi və mürəkkəbliyi ilə seçilir. Yüksək sənətkarlıqla işlənmiş ornamentlərin taxçalarda təkrarı ancaq yaxından baxarkən hiss edilir. Bu naxış və ornamentləri yalnız Naxçıvan şəhərində 1186-cı ildə Naxçıvan memarlıq məktəbinin banisi Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən inşa edilmiş Möminə xatın türbəsinin ornamentləri ilə müqayisə etmək olar.

*Əminliklə deyə bilərik ki, muxtar respublikamızın ərazisindəki tarixi abidələr qədim diyarımızın şanlı keçmişini özündə yaşatmaqla bərabər, həm də müasir dövrdə turizm potensialının artmasına xidmət edir. Bu gün Naxçıvan tarixi abidələr və görməli yerlər üzrə səyahət turizminin ən ideal məkanlarındandır. Muxtar respublikamıza səfər edən hər bir qonaq buradan xoş təəssüratlarla ayrılır. Bu mənada, Naxçıvanda tarixi abidələrin bərpası, geniş tədqiqi və təbliği bütün Azərbaycan xalqı kimi, xarici qonaqlar tərəfindən də rəğbətlə qarşılanır.*

**Rauf ƏLİYEV**

*"Azərbaycan Respublikası İnzibati Xətatlar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin Fərmanına əsasən yeni İnzibati Xətatlar Məcəlləsi qəbul edilib. 2016-cı il martın 1-də qüvvəyə minən yeni məcəllə bir sıra sahələrdə yenilikləri nəzərdə tutur. Bəs yeni məcəlləyə əsasən miqrasiya proseslərinin tənzimlənməsi sahəsində inzibati məsuliyyətlə bağlı hansı dəyişikliklər olacaq? Bununla əlaqədar suallarımızı Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin əməkdaşı, kiçik miqrasiya xidməti müşaviri Rahib Kərimov cavablandırır.*

# Yeni İnzibati Xətalar Məcəlləsi miqrasiya proseslərində də dəyişikliklərə səbəb olub

***– Yeni İnzibati Xətalar Məcəlləsində əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə yaşayış sahəsi vermiş Azərbaycan Respublikası vətəndaşlarının üzərinə hansı öhdəliklər qoyulur?***

–Yeni məcəllədə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin olduğu yer üzrə qeydiyyata alınması və qeydiyyatdan çıxarılması üçün tədbirlər görülməməsi adında maddə öz əksini tapmışdır. Həmin maddədə qeyd olunur ki, əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə yaşayış sahəsi vermiş Azərbaycan Respublikası vətəndaşları, Azərbaycan Respublikasında yaşayan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi ilə müəyyən edilmiş qaydada onların vaxtında olduğu yer üzrə qeydiyyata alınması və qeydiyyatdan çıxarılması üçün tədbirlərin görülməməsinə görə üç yüz manatdan beş yüz manatadək məbləğdə cərimə edilirlər.

Burada olduğu yer üzrə qeydiyyat dedikdə Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi ilə müəyyən olunmuş əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında olduğu yer üzrə qeydiyyata alınması nəzərdə tutulur. Miqrasiya Məcəlləsinə əsasən, Azərbaycan Respublikasında 10 gündən artıq müvəqqəti olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər olduğu yer üzrə qeydiyyata alınmalıdırlar. Bunun üçün əcnəbinin və vətəndaşlığı olmayan şəxsin qaldığı yerin müdiriyyəti və ya mənzilin, digər yaşayış sahəsinin sahibi, yəni qəbul edən tərəf əcnəbinin və vətəndaşlığı olmayan şəxsin ölkəyə gəldiyi vaxtdan 10 gün ərzində həmin şəxsin olduğu yer üzrə qeydiyyata alınması haqqında ərizə anketi və onun pasportunun surətini internet informasiya ehtiyatı, elektron poçt vasitəsilə və ya şəxsən Dövlət Miqrasiya Xidmətinə təqdim etməlidir.

Əvvəlki İnzibati Xətalar Məcəlləsində də bu maddə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin qeydiyyata alınması və qeydiyyatdan çıxarılması üçün tədbirlərin görülməməsi kimi təsbit olunmuş, burada inzibati xətanın subyekti kimi Azərbaycan Respublikasının vətəndaşları göstərilmişdi.Yeni İnzibati Xətalar Məcəlləsində isə bu maddə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin olduğu yer üzrə qeydiyyata alınması və qeydiyyatdan çıxarılması üçün tədbirlər görülməməsi kimi təsbit olunmuş və inzibati xətanın subyekti kimi həm Azərbaycan Respublikasının vətəndaşları, həm də Azərbaycan Respublikasında yaşayan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər göstərilmişdir. Beləliklə, əcnəbi və vətəndaşlığı olmayan şəxsi qəbul edən tərəf qarşısında 10 gün ərzində həmin şəxsin olduğu yer üzrə qeydiyyat məsələlərini həll etmək öhdəliyi yaranır. Əgər qəbul edən tərəf bunun üçün hər hansı bir tədbir görmürsə, o, inzibati xəta törətmiş sayılır və buna görə də qanunvericiliklə nəzərdə tutulmuş qaydada inzibati məsuliyyətə cəlb ediləcəkdir.

***– Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin işə cəlb edilməsi qaydasının pozulması ilə bağlı yeni qanunda hansı dəyişikliklər var?***

– Əvvəlki İnzibati Xətalar Məcəlləsində işəgötürən tərəfindən qanunvericiliyin tələbləri pozulmaqla fərdi icazə alınmadan əcnəbinin və vətəndaşlığı olmayan şəxsin işə cəlb edilməsinə görə vəzifəli şəxslərin üç min manatdan beş min manatadək miqdarda, hüquqi şəxslərin isə otuz min manatdan otuz beş min manatadək cərimə edilməsi nəzərdə tutulurdu. Lakin yeni İnzibati Xətalar Məcəlləsində əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin işə cəlb edilməsi qaydasının pozulması ilə bağlı yeni hallar müəyyən olunmuş, inzibati xətaların növündən asılı olaraq inzibati cərimələrdə də müəyyən dəyişikliklər edilmişdir. Belə ki, yeni İnzibati Xətalar Məcəlləsində əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin işə cəlb edilməsi qaydasının pozulması maddəsində bəndlər üzrə inzibati xəta növləri və inzibati xətaya görə tətbiq edilən cərimələrin miqdarı müəyyən olunmuşdur. Həmin maddədə qeyd olunmuşdur ki, işəgötürən tərəfindən Azərbaycan Respublikası Miqrasiya Məcəlləsinin tələbləri pozulmaqla iş icazəsi alınmadan əcnəbinin və vətəndaşlığı olmayan şəxsin işə cəlb edilməsinə görə vəzifəli şəxslər üç min manatdan dörd min manatadək məbləğdə, hüquqi şəxslər on beş min manatdan iyirmi min manatadək məbləğdə, eyni xəta üç və ya daha çox əcnəbi və vətəndaşlığı olmayan şəxs barəsində törədildikdə vəzifəli şəxslər beş min manatdan yeddi min manatadək məbləğdə, hüquqi şəxslər otuz min manatdan otuz beş min manatadək məbləğdə, işəgötürənin işə cəlb etdiyi əcnəbini və vətəndaşlığı olmayan şəxsi öz iş yerindən kənarda işlə təmin etməsinə görə vəzifəli şəxslər beş yüz manat məbləğində cərimə ediləcəklər. İşə cəlb edilən əcnəbinin və vətəndaşlığı olmayan şəxsin pasportunun və ya şəxsiyyətini təsdiq edən digər sənədinin işəgötürən tərəfindən götürülərək saxlanılmasına görə vəzifəli şəxslər beş yüz manat məbləğində, əcnəbi və vətəndaşlığı olmayan şəxslə işəgötürən arasında bağlanılmış əmək müqaviləsi vaxtından əvvəl pozulduqda bu barədə 5 iş günü müddətində işəgötürən tərəfindən Dövlət Miqrasiya Xidmətinə məlumat verilməməsinə görə vəzifəli şəxslər üç yüz manat məbləğində, əcnəbinin və vətəndaşlığı olmayan şəxsin şəxsiyyətini təsdiq edən sənədlərindəki məlumatlar və ya işlədiyi hüquqi şəxsin adı dəyişdikdə və ya iş icazəsi itirildikdə 5 iş günü müddətində işəgötürən tərəfindən Dövlət Miqrasiya Xidmətinə məlumat verilməməsinə və belə icazənin yenidən rəsmiləşdirilməməsinə və ya ləğv edilməsi üçün ərizə təqdim edilməməsinə görə vəzifəli şəxslər yüz manat məbləğində cərimələnəcəklər.

***– Yeni İnzibati Xətalar Məcəlləsində baxılması Dövlət Miqrasiya Xidmətinə aid maddələrdəki müvafiq dəyişikliklərin miqrasiya proseslərinə təsiri necə olacaqdır?***

– Yeni dəyişikliklər miqrasiya proseslərinin tənzimlənməsi və ölkəmizdə qeyri-qanuni əmək fəaliyyətinin qarşısının alınması üçün böyük əhəmiyyətə malikdir. Bu məcəllə qanunsuz miqrasiya proseslərinin iştirakçısı olan Azərbaycan Respublikası vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, əcnəbilər və vətəndaşlığı olmayan şəxsləri işəgötürənlər üçün yeni məsuliyyət normaları müəyyən edir. Müqayisə üçün qeyd etməliyik ki, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində işəgötürənin işə cəlb etdiyi əcnəbini və vətəndaşlığı olmayan şəxsi öz iş yerindən kənarda işlə təmin etməsi, işə cəlb edilən əcnəbinin pasportunun və ya şəxsiyyətini təsdiq edən digər sənədinin işəgötürən tərəfindən götürülərək saxlanılması, əcnəbi və vətəndaşlığı olmayan şəxslə işəgötürən arasında bağlanmış əmək müqaviləsi vaxtından əvvəl pozulduqda bu barədə işəgötürən tərəfindən Dövlət Miqrasiya Xidmətinə məlumat verilməsi və əcnəbinin və vətəndaşlığı olmayan şəxsin şəxsiyyətini təsdiq edən sənədlərindəki məlumatlar və ya işlədiyi hüquqi şəxsin adı dəyişdikdə və ya iş icazəsi itirildikdə işəgötürən tərəfindən Dövlət Miqrasiya Xidmətinə məlumat verilməsi öhdəliyi müəyyən edilmişdir. Lakin bu kimi hallar baş verdikdə işəgötürənlər barəsində inzibati məsuliyyət və inzibati tənbeh tədbirləri müəyyənləşdirilməmişdi. Yeni İnzibati Xətalar Məcəlləsində isə artıq bu kimi hallar baş verdikdə işəgötürənlərin inzibati məsuliyyəti tam dəqiqliklə öz əksini tapmışdır. Yəni bu sahədə hüquqi şəxslərin və vəzifəli şəxslərin konkret olaraq hüquqi öhdəlikləri və məsuliyyət qaydaları müəyyən edilmişdir. Həmçinin təsdiq edilmiş normalar və məsuliyyət qaydaları əcnəbi və vətəndaşlığı olmayan şəxsi qəbul edən tərəflər, o cümlədən əcnəbi və vətəndaşlığı olmayan şəxsi işəgötürənlər və miqrasiya orqanları arasında hüquqi münasibətləri daha dəqiq şəkildə tənzimlənməsi üçün geniş imkan yaradacaqdır.

*– Sağ olun!*

**Səbuhi HÜSEYNOV**

# 5 mart – Bədən Tərbiyəsi və İdman Günü münasibətilə tədbirlər keçirilib



*Muxtar respublikamızda məşqçi-müəllimlər, hakimlər və idmançılar üçün təşkil olunan seminarlar davam etdirilir.*

Növbəti seminar dünən Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Güləş Federasiyasının təşkilatçılığı ilə cüdo məşqçiləri və hakimləri üçün keçirilib. Seminarı giriş sözü ilə Gənclər və İdman Nazirliyi Aparatının Kütləvi bədən tərbiyəsi və idman şöbəsinin müdiri Taleh İbrahimov açaraq muxtar respublikada bu idman növünün geniş yayıldığını, gənclərin bu sahəyə maraq göstərdiklərini bildirib.

5 mart – Bədən Tərbiyəsi və İdman Gününə həsr olunan cüdo üzrə seminarda Azərbaycan Cüdo Federasiyasının baş katibi Elmar Babanlı və Azərbaycan Cüdo Federasiyası Hakimlər Kollegiyasının sədri, beynəlxalq dərəcəli hakim Fariz Hüseynov çıxış ediblər.

Seminarın mahiyyəti barədə danışan federasiya nümayəndələri yeni qaydalar barədə məlumat veriblər və onları izahlı şəkildə kompüter vasitəsilə nümayiş etdiriblər. Fəndlərin tətbiqi, hakimlərin və məşqçilərin bu fəndlərə qiymətı seminar zamanı müzakirə olunub.

Qeyd edək ki, bu gün Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində cüdo üzrə muxtar respublika birinciliyinə start veriləcək və federasiya nümayəndələri bu yarışda iştirak edəcəklər.

* * *



*5 mart – Bədən Tərbiyəsi və İdman Gününə həsr olunmuş yeniyetmə və gənclər arasında boks üzrə Naxçıvan şəhər açıq birinciliyinə yekun vurulub.*

Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində keçirilən yarış iki gün davam edib və 60-dan çox dəri əlcək sahibi qalib adı uğrunda mübarizə aparıb. Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi ilə Naxçıvan Muxtar Respublikası Boks Federasiyasının birgə təşkil etdiyi birincilikdə idmançılar 12 çəki dərəcəsində rinqə çıxıblar.

Naxçıvan şəhərinin, Ordubad və Kəngərli rayonlarının dəri əlcək sahiblərinin final görüşləri gərgin idman mübarizəsi şəraitində keçib. Yarışın yekun nəticəsinə əsasən, Hüseyn Hüseynov (Naxçıvan şəhəri, 28 kiloqram), Ayxan Quliyev (Naxçıvan şəhəri, 42 kiloqram), Kənan Zamanlı (Naxçıvan şəhəri, 44 kiloqram), Kənan İbrahimov (Ordubad rayonu, 48 kiloqram), Muxtar Fərzəliyev (Naxçıvan şəhəri, 52 kiloqram), Əhməd Rzayev (Naxçıvan şəhəri, 56 kiloqram), Kiran Bayramov (Kəngərli rayonu, 60 kiloqram), İbrahim Cəfərzadə (Naxçıvan şəhəri, 64 kiloqram), Yuris Allahverdiyev (Naxçıvan şəhəri, 69 kiloqram), Məhəmmədəli Bağırov (Naxçıvan şəhəri, 75 kiloqram), Toğrul İsmayıllı (Naxçıvan şəhəri, 81 kiloqram) və Samiq Heydərli (Naxçıvan şəhəri, 91 kiloqram) bütün rəqiblərinə qalib gələrək birinciliyin baş mükafatını qazanıblar.

Sonda hər çəki dərəcəsində ilk üç pilləni tutan idmançılara diplom təqdim edilib.

* * *



*5 mart – Bədən Tərbiyəsi və İdman Günü münasibətilə Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində paralimpiyaçılar arasında voleybol yarışı keçirilib.*

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Paralimpiya Federasiyasının birgə təşkil etdiyi yarışda hər biri 6 nəfərdən ibarət 5 komanda iştirak edib.

Tədbirdə Gənclər və İdman Nazirliyi Aparatının Kütləvi bədən tərbiyəsi və idman şöbəsinin müdiri Taleh İbrahimov və Paralimpiya Federasiyasının sədr müavini Fuad Səfərov çıxış edərək bildiriblər ki, bu yarışın keçirilməsində əsas məqsəd məhdud fiziki imkanlı gənclər arasında idmanın kütləviliyinə, istedadlı idmançıların aşkara çıxarılmasına, həmçinin onların asudə vaxtlarının səmərəli təşkilinə nail olmaqdır.

Yarışın nəticələrinə görə, 1-ci, 2-ci və 3-cü yerlərə layiq görülən komandalara Paralimpiya Federasiyasının hədiyyələri, digər yarış iştirakçılarına isə diplomları təqdim edilib.

* * *



*Dünən Naxçıvan Muxtar Respublika Stadionunda muxtar respublikanın orta ixtisas və ümumtəhsil məktəblərinin tələbə və şagirdləri arasında 5 mart – Bədən Tərbiyəsi və İdman Gününə həsr olunmuş velosiped idman növü üzrə muxtar respublika birinciliyi keçirilib.*

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirlikləri və Hava və Ekstremal İdman Növləri Federasiyasının birgə təşkil etdiyi birincilikdə 16-18 yaş arası oğlan və qızlar güclərini sınayıblar.

Yarışdan əvvəl çıxış edən Gənclər və İdman Nazirliyi Aparatının Kütləvi bədən tərbiyəsi və idman şöbəsinin müdiri Taleh İbrahimov və federasiyanın sədr müavini Azər Məmmədov muxtar respublikada idmanın geniş yayılması üçün görülən və görüləcək işlər barədə danışıblar. İdmançıları təbrik edən təşkilatçıların çıxışından sonra yarışa start verilib.

160-a yaxın idmançının çıxış etdiyi birincilikdə qızların mübarizəsində finiş xəttinə daha tez Naxçıvan Musiqi Kollecinin tələbəsi Kəmalə Əliyeva çatıb. Naxçıvan Dövlət Texniki Kollecinin tələbəsi Günəş Cahangirova ikinci, Naxçıvan şəhər 7 nömrəli tam orta məktəbin şagirdi Lalə Kərimova isə üçüncü yerə çıxıblar. Oğlanların mübarizəsində isə mükafatçılar Naxçıvan şəhər 16 nömrəli tam orta məktəbin şagirdləri olub. Belə ki, Ayxan Seyidov, Musa Sadiqov və Ramin Zamanov müvafiq olaraq ilk üç pillədə qərarlaşıblar.

Sonda qaliblərə təşkilatçıların diplomları təqdim edilib.

**Ceyhun MƏMMƏDOV**

**ŞƏRQ qapısı**
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 188